**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

**BAKALAVRİAT SƏVİYYƏSİ ÜÇÜN**

**İxtisas: 050201 Filologiya (Azərbaycan dili və ədəbiyyatı)**

# FƏNN: İPFS –B04 AZƏRBAYCAN MİFOLOGİYASI

**(III kurs)**

# PROQRAM

**BAKI- 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

**BAKALAVRİAT SƏVİYYƏSİ ÜÇÜN**

**İxtisas: 050201 Filologiya (Azərbaycan dili və ədəbiyyatı)**

# FƏNN: İPFS –B04 AZƏRBAYCAN MİFOLOGİYASI

**(III kurs)**

# PROQRAM

**Bakı Dövlət Universiteti Rektorunun 07 yanvar 2020-ci il tarixli, R-02 saylı əmri ilə təsdiq edilmişdir.**

**BAKI – 2020**

**Tərtib edən:** Məmmədov Məhəmməd Məmmədsəidoğlu– *Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi*

**Redaktor** Orucova Səhər Hidayət qızı – *Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor, filologiya elmlər doktoru*

**Rəyçilər:** Seyfəddin Gülverdi oğlu Rzasoy – *AMEA-nın Folklor İnstitutunun "Mifologiya" şöbəsinin müdiri, filologiya elmlər doktoru, professor*

İslamzadə Kəmalə Faiq qızı – *Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi*

***© "Bakı Universiteti" nəşriyyatı, 2020***

## AZƏRBAYCAN MİFOLOGİYASI

## İZAHAT VƏRƏQİ

«Azərbaycan mifologiyası» fənni (İPFS- B04) bakalavriaturanın Filologiya (Azərbaycan dili və ədəbiyyatı - 050201) ixtisası üzrə III kursunda 30 saat mühazirə, 15 saat məşğələ olmaqla semestr ərzində cəmi 45 saat həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartlarına uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və məşğələlərdir. Məşğələlərlə yanaşı, tələbənin dərsdənkənar vaxtda yerinə yetirdiyi müntəzəm sərbəst işləri də tədrisin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi** – tələbələri mif və mifologiya, mifoloji zaman və məkan, mifoloji şüur, mif və ayin, mifoloji mətnin özünəməxsus cəhətləri, mif və nağıl, mif və epos, mif və əfsanənin əsas fərqi haqqında hərtərəfli məlumatlandırmaq, Azərbaycan miflərinin tipoloji baxımdan 3 qrupa ayrılması və hər bir qrupun əsas məzmunu barədə onlara bilgi vermək, Azərbaycan mifoloji mətnlərinin toplanma, nəşr və tədqiqində alimlərimizin gördükləri işləri dəyərləndirmək, mədəni qəhrəman və ilkin əcdad obrazları, Tanrının funksiyaları, mfoloji Ulu Ana obrazı və onun variasiyaları, dağ, ağac, su kimi təbiət kultları, şamanizm, İzi //İye kimi hami ruh obrazları, demonik varlıqlar haqqında ümumi məlumat vermək, div, təpəgöz, pəri, əjdaha və s. mifoloji obrazları tələbələrə öyrətməkdir.

**Kursun vəzifələri:**

1. Tələbələrdə mif və mifologiya, mifoloji şüur, mifoloji zaman və məkan, mif və ayin və s. haqqında təsəvvür yaratmaq;

2. Tələbələri dünyanın bir çox mifoloqlarının miflərin təsnifi ilə bağlı fikir və mülahizələri ilə tanış etmək;
3. Azərbaycan mifoloji mətnlərinin tipoloji baxımdan kosmoqonik, etnoqonik və təqvim miflərinə ayrılması, onların əsas məzmununu tələbələrin diqqətinə çatdırmaq;
4. Tələbələri Azərbaycan mifoloji düşüncəsində ilkin əcdad və mədəni qəhrəmanlar, Ulu Ana obrazı və onun variasiyaları, təbiət kultları barədə məlumatlandırmaq;
5. Tələbələrin nəzərini Tanrı və onun funksiyaları, şamanizm və onun ruh həyatı ilə əlaqəli obrazlara yönəltmək;
6. Tələbələrə övliya anlayışı, gizli təbiət qüvvələrinin təcəssümü olan hami ruhlar, demonik varlıqlar haqqında ətraflı məlumat vermək;
7. Tələbələri Novruz bayramı ilə bağlı bir sıra mifoloji obrazların (Kosa, keçəl və s.) arxaik funksiyaları, mifoloji təfəkkürdə sakral rəqəmlərin simvolikası ilə tanış etmək. mifoloji obrazların mənşəyi və xüsusiyyətlərini öyrətməkdir.

## Fənnin tədris prosesində yeri

«Azərbaycan mifologiyası» seçmə fənninin (İPFS-B04) təqdim olunan proqramında tədris prosesində qarşıya qoyulan məqsəd və vəzifələrin doğurduğu nüanslara diqqət yetirilmişdir.

Kursun sonunda tələbələrin dünyagörüşünə aşağıdakı elementlər əlavə olunacaqdır:

a) Əcdadlarımızın mifoloji dünya modeli ilə bağlı təsəvvürlər sistemi haqqında məlumatlar;

b) dünyanı özünəməxsus qanun və vasitələrlə, izah edən mifologiya, mifoloji məkan və zaman, mifoloji şüur, mifoloji mətn haqqında məlumatlar;

c) mifoloji çağda Tək Gerçək Bilik kimi qəbul olunan mifin tarixi çağda bu funksiyasını itirməsi, mif və ədəbiyyatın münasibətlərin aralıq mərhələ olan folklorun mifsizləşmiş mətnləri çərçivəsində gerçəkləşməsi, mifin folklorun müxtəlif janrlarının meydana gəlməsində rolu haqqında məlumatlar;

ç) Azərbaycan mifologiyasının mənbələri və tədqiqatçıları ilə tanışlıq;

d) Azərbaycan xalqının mifoloji düşüncəsi, kosmoqonik, etnoqonik və təqvim mifləri, ilkin əcdad və mədəni qəhrəmanı, kultlarına dair informasiyalar;

e) Türk dini mifoloji sistemində Tanrının funksiyaları, şamanizm və ruh həyatı ilə bağlı obrazlar haqqında bilgilər;

ə) Azərbaycan mifoloji düşüncəsində gizli təbiət qüvvələrinin təcəssümü olan hami ruhlar, demonik varlıqlara aid məlumatlar;

f) Azərbaycan mifik təfəkküründə sakral rəqəmlər, mifoloji obrazlar haqqında informasiyalar

Yeni informasiya və biliklərin tələbələrin əvvəllər qazandığı biliklər bazası üzərində bərqərar olmasına, başqa sözlə, fənlərarası əlaqələrin gözlənilməsinə ciddi şəkildə əməl edilmişdir. Belə ki, tələbələrin bakalavr təhsil pilləsində «Azərbaycan şifahi xalq ədəbiyyatı» və «Azərbaycan dastanları» fənlərindən qazandıqları biliklərin yeni fənn vasitəsilə inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

- əcdadlarımızın dünyanı dərk etməsində, anlamasında mifologiyanın əvəzsiz rol oynadığını;
- Azərbaycan mifoloji mətnlərinin toplanma, nəşr və tədqiq tarixini, qaynaqlarını və miflərimizin təsnifatını.
- Azərbaycan xalqının mifoloji düşüncəsində ilkin əcdad və mədəni qəhrəmanların daşıdığı funksiyalarını;
- Türk dini-mifoloji sistemində Tanrının funksiyalarını, ilkin əcdad, dağ, ağac, Boz qurd və s. kultların daşıdığı mənalarını;
- Azərbaycan mifik təfəkküründə övliya, hami ruhlar, demonik varlıqların özünəməxsus cəhətlərini;
- Azərbaycan mifoloji düşüncəsində sayların simvolikası, mifoloji obrazların mənşəyi və funksiyalarını;

– Novruz bayramı il bağlı bir sıra mifoloji obraz və anlayışların simvolikasını

**Bacarmalıdır:**

- mifoloji çağda tək gerçək bilik kimi qəbul olunan mifi nağıl, epos və əfsanədən fərqləndirməyi;
- Azərbaycan xalqının mifoloji düşüncəsində kosmoqonik, etnoqonik və təqvim miflərinin özünəməxsus cəhətlərini, ilkin əcdad və mədəni qəhrəmanların daşıdığı funksiyaları müəyyənləşdirməyi;
- Azərbaycan xalqının mifoloji düşüncəsində hami ruhlarla demonik varlıqları bir-birindən fərqləndirməyi ;
- Mifoloji obrazlarla bağlı bu və ya digər nəzəri fikrin hansı tədqiqatçıya aid olduğunu müəyyənləşdirməyi.

**Yiyələnməlidir:**

- Azərbaycan mifoloji mətnlərini nəql etmək qabiliyyətinə;
- mifoloji mətnləri təhlil etmək, bu miflərin kosmoqonik, etnoqonik və ya təqvim miflərinə aid olmasını, ilkin əcdad və mədəni qəhrəmanları, hami ruhları, demonik varlıqları, mifoloji obrazların funksiyalarını ayırd etmək vərdişlərinə.

**Mövzular üzrə saatların bölgüsü**

| № | Mövzular | Saatların miqdarı | O cümlədən | |
|---|---|---|---|---|
| | | Cəmi | Müha. | Məş. |
| 1 | Mifologiya haqqında ümumi məlumat | 3 | 2 | 1 |
| 2 | Miflərin təsnifi | 3 | 2 | 1 |
| 3 | Azərbaycan mifoloji mətnlərinin toplanma, nəşr və tədqiq tarixindən | 3 | 2 | 1 |
| 4 | Azərbaycan mifoloji görüşlə- | 3 | 2 | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | rinin qaynaqları və miflərimizin təsnifatı | | | |
| 5 | Mifoloji obraz: genezis və funksiya Mədəni qəhrəman, ilkin əcdad obrazları /Oğuz, Koroğlu və s./ | 3 | 2 | 1 |
| 6 | Azərbaycan türklərinin mifoloji düşüncəsində Tanrı və onun simvolları | 3 | 2 | 1 |
| 7 | Mifoloji Ulu Ana obrazı və onun variasiyaları / Umay, Hal anası və s. / | 3 | 2 | 1 |
| 8 | Azərbaycan mifoloji düşüncəsində təbiət kultları / dağ, ağac, su və s./ | 3 | 2 | 1 |
| 9 | Azərbaycan mifoloji düşüncəsində şamanizm və ruh həyatı ilə əlaqəli obrazlar | 3 | 2 | 1 |
| 10 | Azərbaycan türklərinin mifoloji düşüncəsində gizli təbiət qüvvələrinə- əyələrə inam | 3 | 2 | 1 |
| 11 | Azərbaycan türklərində övliya anlayışı və hami ruh obrazları haqqında | 3 | 2 | 1 |
| 12 | Azərbaycan mifoloji düşüncəsində demonik varlıqlar /Hal // Al anası/ | 3 | 2 | 1 |
| 13 | Yaz bayramı ilə bağlı bir sıra mifoloji obraz və anlayışların simvolikası | 3 | 2 | 1 |
| 14 | Azərbaycan mifik təfəkküründə sakral rəqəmlər | 3 | 2 | 1 |
| 15 | Azərbaycan folklorunda mifoloji obrazlar | 3 | 2 | 1 |

## Mövzuların qısa məzmunu

## 1. Mifologiya haqqında ümumi məlumat

Mif şüur və davranış modeli aktı kimi. Mifologiya dünyanı özünəməxsus qanun və vasitələrlə biçimləyən, izah edən dinamik işarələmə sistemi kimi. Mifdə sakral və profan qoşalığı.

Mifoloji zaman və mifoloji zaman.

Mifoloji çağda Tək gərçək bilik kimi qəbul olunan mifin tarixi çağda bu funksiyasını itirməsi. Mif və ədəbiyyatın münasibətləri aralıq mərhələ olan folklorun mifsizləşmiş mətnləri çərçivəsində gerçəkləşməsi.

Mif və nağıl. Mif və epos. Mif və ritual.

Mifoloji mətnin özünəməxsus cəhətləri. [1], [3], [7], [13], [28], [41]

## 2. Miflərin təsnifi

Dünyanın bir çox mifoloqları tərəfindən miflərin təsnifi / E.B.Taylor, V.Vundt, M.İ. Şaxnoviç, Y.M.Meletinski, S.Q. Klyaştornı bə başqaları /.

Dünya xalqlarının miflərinin tipolojı baxımdan 3 qrupa ayrılması: 1. Kosmoqonik miflər; 2. Etnoqonik miflər; 3. Təqvim miflər.

Kosmoqonik miflərin əsas məzmununu "nizamlayıcı kosmik başlanğıcla dağıdıcı xaotik başlanğıcın mübarizəsinin" təşkil etməsi. Kosmoqonik miflərdə təbiət insan əlaqəsi. Mifopoetik düşüncədə xaos qaydasızlıq, boşluq, qaranlıq və s. kimi təsvir olunması. Dünyanın yaradılmasında müəyyən qayda və ardıcıllıq.

Etnoqonik miflərin əsas məzmununu insanların yaranması, evlənmə və qohumluq qaydalarının və s. meydana çıxmasının təşkili. Cəmiyyətin yaranması, qayda qanunların, əmək alətlərinin və s.-nin meydana çıxmasının geneolojı miflərdə ilkin əcdad və mədəni qəhrəmanın adı ilə bağlılığı.

Təqvim miflərində etnosun zaman kateqoriyasına münasibəti. Kainatın dövrəviliyi və dövriliyinin təqvim miflərində əksi.

[1], [7], [28], [31],[41]

## 3. Azərbaycan mifoloji mətnlərinin toplanma, nəşr və tədqiq tarixindən

M. Kazımbəyin "Firdovsiyə görə fars əsatiri" əsəri mifologiya sahəsində azərbaycanlı alim tərəfindən tədqiq olunmuş ilk araşdırma kimi. Y. V. Çəmənzəminli Azərbaycan folkloru və mifologiyası haqqında dəyərli fikirlər söyləmiş bir araşdırıcı kimi.

M.H.Təhmasibin Xıdır, Təpəgöz, Dədə Qorqud surətləri ilə bağlı irəli sürdüyü fikirlər.

Mirəli Seyidovun mifologiya sahəsində elmi axtarışları ("Azərbaycan mifik təfəkkürünün qaynaqları", "Azərbaycan xalqının soykökünü düşünərkən" və s. əsərləri).

"Azərbaycan mifoloji mətnləri" kitabı Azərbaycan miflərinin toplu şəkilində nəşr sahəsində ilk təşəbbüs kimi. A.Şükürovun dünya xalqlarının mifoloji düşüncəsini öyrənən "Mifologiya" kitabları.

C.Bəydilinin (Məmmədov) ensiklopedik lüğət səciyyəsi daşıyan "Türk mifoloji sözlüyü" kitabı. Onun "Türk mifoloji obrazlar sistemi: struktur və funksiya" kitabında mifoloji obrazların funksional semantikası, türk tanrıçılığı və s.-nin öyrənilməsi.

F.Bayatın "Mifologiyaya giriş", 2 hissəli "Türk mifoloji sistemi" kitabları. R. Qafarlının "Mif, əfsanə, nağıl və epos (epik ənənədə janrlararası əlaqə)", "Azərbaycan türklərinin mifologiyası" kitabları.

S.Rzasoy Oğuz mifologiyasında ritual modeli, xaos və onun paradiqmaları və s. öyrənən araşdırıcı kimi. Mifoloji araşdırmalar sahəsində R.Bədəlov, B.Abdulla, R.Əliyev, R. Kamal, A. Xəlil və başqalarının fəaliyyəti haqqında.

[1], [2], [13], [22], [41]

## 4. Azərbaycan mifoloji görüşlərinin qaynaqları və miflərimizin təsnifatı

Azərbaycan mifoloji görüşlərinin ilkin qaynaqları. Azərbaycan mifoloji mətnlərinin təsnifi / A.Şükürov, A.Acalov, R. Qafarlı, M. Məmmədov və başqaları /.

İslam dininin təsiri altında formalaşan miflərin mifoloji mətnlərimizin üst qatında görünməsi. İslam dininin təsiri altında formalaşan miflərdə dünyanın yaradıcısı kimi Allahın çıxış etməsi

Dünyanın sudan və ya torpaqdan yaranması ilə bağlı Azərbaycan mifləri. Günəş, ay, ulduz və s. haqqında kosmoqonik miflər. Miflər toplusundan ibarət olan "Sehrli sünbüllər" kitabında Boz öküz dünyanın yaradıcısı kimi.

İslam mifologiyasında ilk insan – Adəmin vahid tanrı tərəfindən gildən, sudan və laxtalanmış qandan yoğrulub yaradılması. Azərbaycan mifoloji mətnlərində Koroğlu ilkin əcdad, mədəni qəhrəman kimi.

Təqvim miflərində etnosun zaman kateqoriyasına münasibətinin əksi. Azərbaycan təqvim miflərində Novruz bayramının yeri.

[1], [3], [9], [28]

## 5. Mifoloji obraz: genezis və funksiya. Mifoloji varlığın funksionallığı. Azərbaycan mifik təfəkküründə mədəni qəhrəman, ilkin əcdad obrazları

Hər bir etnik-mədəni ənənənin dünya haqqında öz sisteminə uyğun mifopoetik düşüncə modeli olması.

Mifoloji personajlar insanın təbiətlə iç-içə olduğu düşüncəsinə söykənən, ətraf aləmdəki hadisə və nəsnələrini antropomorflaşdıran mifoloji təfəkkürün məhsulu olması. Mifoloji personajın başlıca əlamətləri. Mifoloji varlıqların semantik-struktur və simvolika . baxımından dəyişikliyə uğraya bilməsi.

Mifoloji varlıqların insanlara ikili münasibəti. Mifoloji varlıqların zoomorf ipostaslı olmaları.

Mədəni qəhrəmanı səciyyələndirən əsas əlamətlər. Mədəni qəhrəman arxaik strukturlu dastanlarda həm kultun təsisçisi, həm də ilkin icraçısı funksiyasında. Zoomorf cizgili mədəni qəhrəmandan – triksterdən danışan etioloji miflər. İlkin əcdadlar mədəni qəhrəman və ya demiurqlar kimi dünyanın yaradılması aktında iştirakı.

Türk mifologiyasında Türk mədəni qəhrəman obrazında. İlk şaman obrazını özündə təcəssüm etdirən Uluq Türük obrazı. Türk etnik-mədəni ənənəsində Oğuz ilkin əcdad, mədəni qəhrəman statusunda. Oğuzun xtonik keyfiyyəti.

Koroğlunu ilkin əcdad, mədəni qəhrəman və ya demiurq funksiyası ilə bağlayan cizgilər. Koroğlu genezis etibarilə mədəni qəhrəman-demiurq obrazının epik transformasiyası kimi.

Türk mifoloji sistemində Boz Qurdun mədəni qəhrəman, ilkin əcdad, yol göstərici, hami ruh və s. kimi funksiyaları.

Qurdun totem olub–olmadığı məsələsi ilə bağlı mülahizələr.

[1], [3], [4], [7], [10], [29], [30]

## 6. Türk mifoloji düşüncəsində Tanrı və onun simvolları

Tanrıçılıq qədim türklərdə geniş yayılmış dini mifoloji sistem kimi. Türk dillərinin müxtəlif fonetik variantlarında (Azərb. Tanrı, qazax Tenri, türkmən Tanri, qırğız Tenir, başqırd Tenre, uyğur Tenri, özbək Tanqrı, altay Tenqri, xakas Tiqir, yakutlarda Tanqara və s. ) mövcud olan Tanrı göy və onun hakimi mənalarında.

Türk tanrıçılığının tək Tanrı inanışı-Göy Tanrı anlayışı ətrafında təşəkkül tapması. "Göy Tanrı" adında "göy" tərkibi və onun semantik mənası. Tanrıçılıq ilahi qanunlarıyla aləmləri nizama salan Yaradan Ulu Tanrıya ruhu təmiz duyğularla dolu olan bir cəmiyyətin dini inanış sistemi kimi. Tonyukuk abidəsində "Türk Tanrısı" anlayışı. Türk düşüncəsində Tanrının heç bir

antropomorfik özəllik daşımaması. M.Kaşğarlının "Divanü lüğati-it-türk" əsərində "Tenğri" sözü.

Müsəlmanlığı qəbul edən türklər əski Tanrı adını və O-nun vəsflərini yeni dinlərinin Tanrısı mənasında işlətməsi. "Dədə Qorqud kitabı"nda Allah və Tanrı anlayışlarının yan-yana işlədilməsi.

Türk dini-mifoloji dünyagörüşündə Ulu Yaradıcı qüvvət Tanrı və O-ndan aşağı qatda olan müqəddəs varlıqlar-əyələr (ruhlar), övliyalar və s.

Tiirk etnik-mədəni ənənəsində Tanrını rəmzləndirən anlayışlar – Uqan // Oğan, Bayat, İzi, Kayraqan // Kayrakan.

Türk düşüncəsində Tanrı ("Tenqri") anlayışı "ulu ağac" və "ulu dağ" kimi məfhumları özündə ehtiva etməsi. Tanrının atributları (göy, yaradıcı, hami, insan taleyini müəyyənləşdirən, cəzalandırıcı, kişi başlanğıcı və s.).

[2], [3], [7], [8], [31], [42]

## 7. Mifoloji Ulu Ana obrazı və onun variasiyaları (Umay, Hal anası və s.)

Ulu Ana, Ulu Ağ Ana, İlahə Ana / Yer Ana kompleksi. Transformasiyaya uğrayan Ulu Ana kompleksindən müstəqil funksiya daşıyan obrazların meydana çıxması. Türk mifoloji dünya modelində Ulu Ananın yeri yaradıcı, bolluq-bərəkət hamisi olmaq kimi funksiyalarla səciyyələnməsi.

Ulu Ana kompleksindən qopma xtonik qadın obrazları və ya hami ruhlar. Ulu Ananın mifoloji funksiyaları (mərasim hamisi, görücü, bilici olması və s.). Ulu Ana kompleksinin transformu olub adına Yaradılış əfsanəsində rast gəlinən Ağ Ana obrazı.
Ulu Ana obrazının transformları olan Umay, Ötüken, Hal anası, Qarı və s. obrazları.

Qədim türklərin tapındıqları dağı şakral bilinən "Ötüken" adlandırmaları. "Ötüken" türk - monqol xalqlarında ana yurdu bildirməsi.

Umay // Humay ana Ulu Ana kompleksinin atributunu daşıyan mifoloji obrazlardan biri kimi. Umay artım ideyası ilə bağlı bir ruh və ya övliya statusunda. Etnik mədəniyyətin özündə "əyə" olaraq qəbul olunan bu varlığın mifoloji simvolikası və simvolikasına görə "ana//ene", "içe" (əyə), bəzən isə "övliya", "fəriştə" (mələk) adlandırılması.

Umayın qoruyucu, hami funksiyası. Umay ananın antropomorfik görünüşü haqqında. Yakutlarda uşaqların hami ruhu olaraq bilinən, uşağa "kut" verən və yenicə doğan qadının yardımına gələn "Ayıısıt" Umaya verilən adlardan biri kimi.

Umayın mifoloji varlıq kimi yaradıcı başlanğıcı bildirən "qut" anlayışı ilə bağlılığı. Mifoloji Umay Ananın funksiyasını etnik-mədəni ənənə çərçivəsində müsəlmançılıq etiqadına uyğun şəkliylə Fatma nənə obrazının yerinə yetirməsi.

Hami ruh və övliya olan Umay ana adının əski türkcədə "ana bətni" anlamı. Umay obrazının yaradıcı başlanğıc və həyatverici qüvvətlə yanaşı, "can alıcı, ölüm mələyi" kimi ikili mənası.

[2], [3], [7], [10], [25], [35], [44]

## 8. Azərbaycan mifoloji düşüncəsində təbiət kultları (dağ, ağac, su)

Türk mifoloji düşüncəsində Dağ kultu. Kosmik nizamın bütün parametrlərini özündə əks etdirən dağ sakral güc qaynağı, ulu başlanğıc, kök, soyun əsası kimi. Qədim türk düşüncəsində dağ vətən, torpaq hamisi kimi. Türk xalqlarında dağların ulu ana, ulu ata hesab edilməsi.

Ənənəvi təsəvvürlərə görə dağ əyəsi. Mifoloji mətnlərdə dağ əyəsinin görünüş etibarilə A1 // Hal anası obrazına yaxınlaşması. Dağ ruhunun insana bahadırlıq, səs, şairlik, qamlıq bəxş etməsi. "Dədə Qorqud kitabı" nda oğuzların dağdan və onun ruhundan güc almaları ilə bağlı mifik elementlər.

Dağ ruhunun kor olduğuna dair təsəvvürlər. "Koroğlu" dastanındakı Alı kişi kor təsəvvür olunan dağ ruhunun ekvivalenti kimi.

Türk mifoloji düşüncəsində ağac insanların, qəbilələrin, xalqların ulu babalarının anası kimi özünü göstərməsi. Ağac obrazı türk mifoloji düşüncəsində "Bay terek", "Temir kavak", "Həyat (Dünya) ağacı" və s. adlar ilə şifrələnməsi. "Övliya ulu ağac" türk düşüncəsində Tanrının rəmzlərindən biri kimi. "Dədə Qorqud kitabı"nda "Qaba Ağac" anlayışı.

Türk mifoloji dünya modelində su əbədi başlanğıc olan xaosu bildirən və eləcə də yaradılış aktında iştirak edən strukturyaradıcı bir mifologem kimi. Su nizamlı dünyanı xtonik dünyadan ayıran sərhəd rolunda.

Su ölüm motiviylə yanaşı doğum, artım və ölümsüzlük mifologemini özündə birləşdirməsi. Azərbaycan türklərinin demonolojı görüşlərində su əyəsi. Azərbaycan folklorunda suyun həyat, ölümsüzlük, gənclik bəxş etməsi ilə bağlı inamlar. "Koroğlu" dastanında Qoşabulağın sakral aləmin rəmzi olaraq magik keyfiyyətə malik olması .

[2], [3], [4], [7], [10], [20], [38]

## 9. Azərbaycan mifoloji düşüncəsində şamanizm və ruh həyatı ilə əlaqəli obrazlar

Şamanizm mediasiyaya söykənən, inanışlardan ibarət dini və müalicə yönlü praktik fəaliyyət növü kimi. Tanrıçılıqla keçirilən mərasimlərə şamanların buraxılmaması. Şaman olacaq kəsi təbiətin özünün seçməsi. Şaman cəmiyyətlə fövqəltəbii ruhlar aləmi arasında bir vasitəçi mediator kimi.

.Şamanların ayinlərin icrası zamanı qadın geyimi geyməklə şaman kompleksinin qadın təbiətiylə bağlılığı fikrini nəzərə çarpdırması. Ruhlar aləmi ilə bağlı şamanın eləcə də xtonik aləmin gücləri ilə əlaqələndirilməsi.

Şamanizm mədəniyyət hadisəsi kimi. Şaman ayin və mərasimləri türk dini-mifoloji dünyagörüşünün praktik yönümü kimi.

Şaman kosmologiyasına görə kainatın 3 qatlı dünyadan ibarət olması. Ülgen yaradılışın göy qatını dolduran işıqlı ruhların başçısı və demiurqu kimi.

Erlik yeraltı səltənətin hakimi anlamında. Türk mifoloji mətnlərində Erlik ilk insan, kultun ilk təsisçisi, yaradıcısı və icraçısı kimi. Türk şaman mifologiyasında yer altında yaşadıqlarına inanılan abaası /abaahı deyilən bədxah ruhlar.

Şaman əfsanələrində ruhlar şaman olacaq neofitin canını alıb yeraltı dünyaya aparması. Abaası gələcəyin şamanlarının mənəvi «ataları»-yaradıcıları kimi. Neofitin insiasiya mərasimindən keçməsi onun ölüb yeni bir keyfiyyətdə doğulmasını rəmzləndirməsi.

«Qut//kut» məfhumunun türk xalqlarının ənənəvi görüşlərində daşıdığı mənaları və funksiyası.

Ruh həyatı ilə bağlı işlənən «tın» məfhumunun daşıdığı mənalar. Şaman əfsanələrində rast gəlinən «üzüt» məfhumu.

“Can əvəzinə can bulma» motivi ən əski şaman qalıntısı kimi. Dədə Qorqutun ölümündən qaçmağı ilk şamanın Tanrı ilə mücadiləsi motivindən gəlməsi.

[3], [4], [7], [10], [16], [26], [39]

## 10. Azərbaycan türklərinin mifoloji düşüncəsində gizli təbiət qüvvələrinə – əyələrə inam

Qədim türklərin gizli təbiət qüvvələrinə-ruhlara inanması. Türk dini-mifoloji dünyagörüşündə təbii obyektlərin təcəssümü olan və İzi//İye (yiyə//əyə) adı daşıyan hami ruhların yeri. İzi//İyə anlayışının Göy-Tanrı dini ilə yaxından bağlı olması. Bu anlayışla bağlı fikir və mülahizələri.

Yazılı qaynaqlarda bu sözün variant və mənaları haqqında. Abidələrdə «İzi» tam olaraq «Tanrı»nı deyil, O-nun «sahibliyini, yiyə» məzmununu bildirməsi. Türk etnik-mədəni sistemində

«izi//iyə» bir mifoloji varlıq kimi mələk, övliya və s. adlarla qarşıya çıxması.

Başlanğıcda tanrıçılıqla bağlı olan sonradan isə şamanizm görüşləriylə qarışmış «iyə//issi» anlayışı. Azərbaycan türklərinin dilindəki «Yer yiyəsiz olmaz» deyimində bu inancın izinin yaşaması. Azərbaycan mifoloji mətnlərində rast gəlinən yiyə//əyələrin xeyirxah təbiətli olması.

«İzi//iyə» anlayışının əcdad kultuyla bağlı məzmunu. «Yiyə; Tanrı; mələk; ata; ana; əcdad» kimi anlamları bildirən izi//iyə//yiyə//əyə anlayışının ən əski türk sözlərindən biri olması.

[2], [3], [4], [5], [7], [22]

## 11. Azərbaycan türklərində övliya anlayışı və hami ruh obrazları haqqında

Əcdad ruhu ilə bağlılığın ifadəsi olaraq qəbul edilən övliya türk xalq inanışlarında qeyb dünyası-görünməzlər aləmi ilə bağlılıqda olduğu düşünülən varlıq kimi. Ənənəvi dini-mifoloji təsəvvürlərdə övliyaların kəramət sahibi olmaları. Burkut Baba, Qambar, Qorqut Ata, Xızır, Həzrət Əli və b. türk-müsəlman övliya tipləri olması.

Qorqud Ata bir övliya olaraq ənənəvi türk düşüncəsində qeyb aləmi ilə bağlılığı. Qorqud Ata, Xızırın bir neçə yerdə məzarlığının olması müqəddəs bilinən varlıqların bəlalardan qoruyucu, hifzedici hami inamından irəli gəlməsi. Qorqut Ata etnik-mədəni ənənədə bor övliya kəramət sahibi və ulu əcdad kimi. Ölümdən qorxub qaçan Qorqutun adını xalq düşüncəsi zahiri bənzərlik əsasında "qorxu", "qorxmaq" sözü ilə əlaqələndirməsi. O, mədəni qəhrəman, demiurq, mədəni aktın ilk yaradıcısı və icra edəni kimi.

Türk etnik-mədəni ənənəsində kosmik düzənin dağılması haqqında esxatolojı modellə bağlı fikirlərin şaman və övliya Qorqutun adı ilə əlaqələndirilməsi.

Gizli təbiət qüvvələri olan əyələr, mələklər və ya fəriştələrin ənənəvi türk təsəvvüründə bəzən "övliya" sayılması. Həzrət Əli,

Xızırın qırx ərənlər arasında görünməsi qırxlar kultunun türk-islam düşüncəsində dini-irfani tutumu ilə bağlı olması.

[2], [3], [7], [9], [15], [25]

## 12. Azərbaycan mifoloji düşüncəsində demonik varlıqlar (Hal//Al anası)

"Demon" anlayışının yunan mifologiyasında "hansısa naməlum ilahi qüvvə" anlamını bildirməsi. Hər dona düşə bilən canın bəlli bir əşyada, quşda və ya digər varlıqda olması demonik surətlər üçün xarakterik olması.

Demonologiyanın əsasında təbiətin, ətraf aləmdəki bütün obyektlərin, insanın ruhi hallarının, təsadüfün, uğurun və s.-nin maddi dərkinin durması. Ölənlərin ruhuna sitayiş demonologiyanın bir bölümü kimi.

Demonoloji təsəvvürlər dairəsində bu dünya ilə o biri – yeraltı dünya arasında münasibətlər. Demonoloji sistemə daxil olan o biri dünya güclərinin dönərgə təbiətli olmaları. Demonologiyada bu dünyaya məxsus varlıqlarla yeraltı dünya məxluqlarını bir-birindən fərqləndirən cəhətlər / asimmetriklik və yarımçıqlıq, korluq və görünməz olmaları/. Demonologiyada kor olanın nəinki görməyən, həm də görünməyən kimi xarakterizə olunması

Demonologiyada bir sıra xtonik varlıqlar. Zooantropomorf varlıqların demonizmi onların xtonik təbiətliliyi, xaos başlanğıcı ilə izah olunması.

Azərbaycan türklərinin mifoloji düşüncəsində "Əcinnə, Vurğun, Al anası // Hal anası, Qaramat" və s. Azərbaycan türk-lərinin demonoloji təsəvvüründə cinləri bildirən "bizdən yeylər" anlayışı.

Demonik görüşlərdə xtonik təbiətli Hal anası (Al arvadı) obrazı. Ayrı-ayrı türk xalqlarında Al, Albastı, Albıs, Almas və s. adlar altında bilinən Hal anası obrazının Ulu Ana kompleksinin çox sayda atributlarını daşıması. Hal anası boylu qadınların düşməni kimi.

Albastının şəhvətdə acgözlüyü onun artım, bolluq hamisi olan Ulu Ana mifoloji kompleksindən irəli gəlməsi.

"Yallı" rəqs adının türk xalq inanışlarında Al/ Hal, Albas(tı), Al qarısı mifoloji varlığının adıyla əlaqələndirilməsi.

[2], [3], [4], [7], [10],[22], [25]

## 13. Yaz bayramı ilə bağlı bir sıra mifoloji obraz və anlayışların simvolikası

Bayram dini mifoloji arxaik mifopoetik ənənədə sakral sferaya bağlılığı ilə seçilən zaman kəsimi kimi. Bayramların başlanğıcda ruhani-dini, ayin mahiyyətli olması. Türk düşüncəsində yaz və payızda keçirilən iki böyük bayram.

Axır çərşənbə – qışın son, ilin axır ayına düşən 4 çərşənbədən sonuncusu kimi. Axır çərşənbə gününün özəllikləri. Ritualda su və od elementi.

Aləmin yatan vaxtı - qışın sonunu, yazın başlanğıc anını göstərən vaxt kimi. Həmin vaxtın yaradılış çağından bəri bütün zamanları özündə sığdıran zaman olması, yəni ilkin xaosdan kosmosa əbədi keçişin bir anı.

Çilə// Çillə – inanışlarda qış mövsümü, təbiətin ölümü, yəni "zamansızlıq" kimi qavranılması. Türk xalqlarında «çilə//çillə» sözünün mənaları.

Təbiətin oyanışını rəmzləndirən «Kosa-kosa» və ya "Kosa oyunu". Kosanın geyimində şamanizm elementləri. Kosanın bolluq, artım, məhsuldarlıq, qadın başlanğıcıyla bağlılığı.

Baharın gəlişi, Yeni ilin qarşılanması mərasimi mifopoetik düşüncə hadisəsi kimi xaosdan kosmosa keçişi simvollaşdırması.

[4], [7], [19], [33], [31]

## 14. Azərbaycan mifoloji düşüncəsində sakral rəqəmlər

Mifik təfəkkürdə kəmiyyət anlayışı. Rəqəmlərin mifopoetik sistemlərdə geniş yayılmış işarələr toplusu kimi.

Rəqəmlərin meydana gəlib müstəqil say sistemi anladanadək bir neçə mərhələdən keçməsi. Saylar dünya modelinin mühüm elementi kimi. Sakral rəqəmlər folklorun epik ənənəsində işlənən poetik vasitə kimi.

İlkin arxaik ənənədə rəqəmlərin kosmik, sakral mənada işlənməsi. Azərbaycan folklorunda sakral rəqəmlərin xarakterik cəhəti. Folklorun epik ənənəsində işlənən rəqəmlərin qruplaşdırılması: 1. Qədim insanın mifik təsəvvürlərini əks etdirən sakral rəqəmlər; 2. Kəmiyyət anlamı bildirən adi və ya ənənəvi rəqəmlər.

Sakral rəqəmlərin mənşəyi. Bir sıra sakral rəqəmlərin xeyri əks etdirmək funksiyası daşıması. Şəri təmsil edən sehrli rəqəmlər.

Astral mifologiyada rəqəmlərin planetlərlə, göy cisimləri ilə əlaqələndirilməsi. Azərbaycan folklorunun epik və lirik ənənəsində ən çox işlənən sakral rəqəmlər: 1, 2, 3, 4, 5, 7, 9 və 40. Azərbaycan folklorşünaslığında Y.V. Çəmənzəminli müqəddəs rəqəmlər haqqında fikir söyləyən ilk alim kimi.

“Kitabi-Dədə Qorqud” abidəsində saylar.

[3], [7], [12]

## 15. Azərbaycan folklorunda mifoloji obrazlar

"Kitabi-Dədə Qorqud" abidəsində Qorqut Ata adının eyni zamanda Dədə Qorqut, Dədəm Qorqut, Dədə Qorqud, Dədə Sultan və s. şəkillərdə işlənməsi. Etnososial yaddaşın qoruyucusu olan Qorqut Ata bir övliya kimi. Esxatologiya ilə bağlı dünyanın sonu - "axır zaman" haqqında söylənənlərin Qorqut Ataya aid edilməsi. Qorqutun ölümdən qaçma motivinin ölümlə mücadilə ilə bir semantik cərgədə birləşməsi. Oorqut Atanın ad vermə funksiyası.

Dəli Domrul əski məhsuldarlıq-artım tapınışı və onun ayrılmaz qolu kimi ölüb-dirilmə ideyası ilə bağlılığı. "Dədə Qorqud kitabı"nda Təpəgöz yarıinsan, yarımifoloji varlıq kimi. Təpəgöz və Polifem. Oxşar və fərqli cəhətlər.

Koroğlu obrazının mifoloji qatları. "Koroğlu" dastanının Orta Asiya variantında Koroğlunun möcüzəli doğulması motivi. Goroğlu/ Koroğlunun inisiasiya mərasimi ilə bağlılığı.

Alı kişi obrazında türk xalqlarının dağ kultu, dağ ruhuyla bağlı mifoloji inamların əksini tapması. Alı kişi və Al// Hal anası ilə bağlı paralelliklər. Dağ ruhunun qurda bənzədilməsi.

Qıratın mənşəyi və bu adın etimologiyası ilə bağlı tədqiqatçıların fikir və mülahizələri / M. H. Təhmasib, M. Seyidov, E. Əzizov və başqaları/. Düratın etimologiyası ilə bağlı fikir və mülahizələr.

Div Azərbaycan, türk, türkmən xalq yaradıcılığında işıq və qaranlıq ilə bağlı surət kimi. Sehrli nağılların bir bölümündə divin xeyirxah qüvvə kimi darda qalanların himayəçisi, köməkçisi rolunda çıxış etməsi. Od hamisi, ocaq ruhunun Azərbaycan nağıllarında div surətinin üzərində cəmləşməsi.

Əjdaha türk xalqlarının folklorunda təbiət hadisələrini rəmzləndirən xtonik varlıq kimi. İstiliyin, quraqlığın rəmzi sayılan əjdahanın eyni zamanda ölümün, qaranlığın simvolu kimi verilməsi.

Pəri türk xalqlarının mifoloji təsəvvüründə məkanı adətən Qaf dağı olaraq göstərilən, bəzən acıqlı, bəzən də xeyirxah ruh kimi təsvir olunması. Azərbaycan sehrli nağıllarında pəri qızları gözəlliyin, sağlamlığın, xeyirxahlığın simvolu kimi əks olunması.

[3], [7], [10], [24], [38], [43]

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Bu kursun qarşısında qoyulan məqsədlərə çatmaq üçün ənənəvi metodlarla yanaşı, yeni tədris üsullarından da istifadə edilməlidir. Müəllimin mühazirə mətnləri, elmi ədəbiyyat (məqalələr, monoqrafiyalar, dissertasiyalar və s.), Azərbaycan mifoloji mətnlərindən ibarət toplular (antologiyalar, külliyyatlar və s.) əsasında təlim ənənəvi üsullardan sayılır. Hər mövzu ilə bağlı slaydların hazırlanması, bunlarda ayrı-ayrı tədqiqatçıların fotolarının, araşdırmaların üz qabığının, titul səhifəsinin

göstərilməsi, eləcə də miflərin təsnifatı, hər bir mif bölümünün özünəməxsus xüsusiyyətlərini, Azərbaycan mifologiyasının əsas miflərinin sxemini əks etdirən örnəklər üzərində iş aparılması dərsin keyfiyyətinə müsbət təsirə malik metodlardandır.

## Tədris resursları

Tədris prosesində müəyyən resursların cəlb olunması məqsədəuyğundur. Buraya Azərbaycan mifologiyası haqqında televiziya verilişlərinin çəkilmiş olduğu disklər, slaydların nümayişi üçün lazım olan texniki avadanlıqlar daxildir.

## Sərbəst (fərdi) işlərin mövzuları

1. Azərbaycan mifoloji mətnlərində kosmoqonik miflər
2. Azərbaycan mifoloji mətnlərində etnoqonik miflər
3. Azərbaycan mifoloji mətnlərində təqvim mifləri.
4. Azərbaycan mifoloji mətnlərində hami ruhlar– Yiyə // Əyə, Qaraçuxa
5. Azərbaycan mifoloji mətnlərində demonik varlıqlar – Cin, Əcinnə, Vurğun
6. Azərbaycan mifoloji mətnlərində Hal anası//Al arvad
7. Azərbaycan mifoloji mətnlərində qeyri-adi varlıqlar, dönərgələr
8. Şaman əfsanə və söyləmələri
9. Azərbaycan folklor örnəklərində sakral rəqəmlər / “3”, “7”, “9”, “40”və s. /
10. Azərbaycan folklorunda mifoloji obrazlar / div, əjdaha, pəri və s./

## Ədəbiyyat:

***Əsas:***

1. Azərbaycan mifoloji mətnləri / Tərtib, ön söz və şərhlərin müəllifi A. Acalov. Bakı: Elm, 1988, 196 s.
2. Bayat F. Türk mitolojik sistemi. 2 ciltte. Cilt 1. İstanbul: Ötüken, 2007, 380 s.; cilt 2. 2007, 368 s.

3. Bəydili C. (Məmmədov). Türk mifoloji sözlüyü . Bakı: Elm, 2003, 403 s.
4. Bəydili C. (Məmmədov). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı: Mütərcim, 2007, 272 s.
5. Boratav P.N.Türk mitolojisi/Oğuzların-Anadolu, Azerbaycan ve Türkmenistan türklerinin mitolojisi. Çeviri Receb Özbay. Ankara: Bilge Su, 2012, 128 s.
6. Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, 2004, 368 s.
7. Мифы народов мира. Энциклопедия в двух томах. /Гл. ред. Токарев С.А. М.: Советская энциклопедия, 1991-1992.
8. Ögel B. Türk mitolojisi (Kaynakları ve açıklamaları ile destanlar) 2 ciltte, cilt 1, Ankara: TTK yayınları, 1989, 644 s.; c.2, Ankara: TTK yayınları, 1995, 610 s.
9. Seyidov M.M. Azərbaycan mifik görüşlərinin qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
10. Seyidov M.M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

***Əlavə:***

11. Abdulla B. A. Haqqın səsi. Bakı: Azərnəşr, 1989, 138 s.
12. Abdulla B. "Kitabi-Dədə Qorqud"da saylar. Bakı: Elm, 2006, 141 s.
13. Acaloğlu A. Mifologiya / Azərbaycan ədəbiyyatı tarixi. 6 clddə. I cild. Bakı: Elm, 2004, s. 37-66.
14. Acalov A.M. Dəli Domrul boyunun kökləri və mifoloji simvolikası // Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s. 222-236
15. Басилов В.Н. Культ святых в Исламе. Москва: Мысль, 1970, 144 с.
16. Басилов В.Н. Шаманство у народов Средней Азии и Казахстана. Москва: Наука, 1992, 327 с.
17. Бутанаев В.Я. Культ богини Умай у хакасов /Этнография народов Сибири. Новосибирск: Наука, 1984, с. 93-105

18. Çoruhlu Y.Türk mitolojisinin anahatları. İstanbul: Kabalçı yayınevi, 2000, 237 s.
19. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı: Elm, 1985, s.42-79.
20. Əlizadə R. Azərbaycan folklorunda təbiət kultları. Bakı: Nurlan, 2008, s. 27-74.
21. Ərqun M. Türk ağac kultunun Dədə Qorqud oğuznamələrindəki izləri // "Dədə Qorqud" jurnalı, 2002, № 2, s.3-17
22. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005, 304 s.
23. Gözəlov F. (Bayat). Koroğlu obrazının formalaşmasında xalq sufizmi mərhələsi // "Ulduz" jurnalı, 1999, № 1, s. 73-83
24. Hatəmi M. Türk xalqları folklorunda əjdaha surətinin rəmzləri //Azərb. EA xəbərləri (ədəbiyyat, dil və incəsənət seriyası), 1969, №2, s. 32-41
25. İnan A. Makaleler ve incelemeler. Ankara: Türk Tarih Kurumu Basemevi, 1987, 712 s.
26. İnan A.Tarihte ve bugün şamanizm. Materyaller ve araştırmalar. Ankara: TTK yayınları, 2013, 229 s.
27. Кляшторный С.Г. Мифологические сюжеты в древнетюркских памятниках // Тюркологический сборник, 1977, Москва, 1981, с. 117-137
28. Qafarlı R. Mifologiya. 6 cilddə. I cild. Mifogenez: rekonstruksiya, struktur, poetika. Bakı: Elm və təhsil, 2015, 454 s.
29. Гордлевский В. Что такое «босый волк». // Известия АН СССР. Отд. Лит.и языка. Т. VI, 1947, с. 317-337
30. Липец Р. «Лицо волка благославенно…» (Стадиальные изменения образа волка...)// «Сов.этнография». 1981, № 2, с.120-133
31. Мамедли М.Парадигмы тюркского мифа (Избранные статьи). Киев: Издательство «Панорама», 2018, 192 с.
32. Мелетинский Е.М. Поэтика мифа. Москва: Наука, 1976, 406 с.
33. Novruz. Ensiklopediya. Bakı: Şərq-Qərb, 2008, 208 s.

34. Потапов Л.П. Культ гор на Алтае // ж. «Советская этнография», 1946, № 2, с. 145-160.
35. Потапов Л. П. Умай-божество древних тюрков в свете этнографических данных // Тюркологический сборник-1972, Москва: Наука, 1973, с. 265-286
36. Потапов Л. П. Алтайский шаманизм. Л.: Наука, 1991, 320 с.
37. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004, 199 s.
38. Seyidov M. Alı kişi və Koroğlu obrazlarının prototipləri haqqında // "Azərbaycan" jurnalı, 1978, № 3, s. 184-207
39. Скобелев С.Г. Понятие «кут» и его принадлежности у тюрков Сибири и Средней Азии // журнал «Этнографиическое обозрение», 1997, №6, с. 84-92
40. Şaman əfsanələri və söyləmələri. Bakı: Yazıçı, 1993, 144 s.
41. Şükürov A. Mifologiya. I-IX kitablar. Bakı: Elm, 1995-2006
42. Tanyu H. İslamlıktan önce türklerde tek Tanrı inancı. Ankara: Ankara Üniversitesi basımevi, 1986, 233 s.
43. Təhmasib M. H. Seçilmiş əsərlər. 2 clddə. I cild. Bakı: Mütərcim, 2010, 488 s.
44. Янборисов В.Р. Умай в верованиях народов Сибири, Средней Азии и Казахстана / Древний и Средневековый Восток. Москва: Наука, 1987, с. 153-164